***COĞRAFİYANIN TƏDRİSİ METODİKASI***
***METHODOLOGY OF TEACHING GEOGRAPHY***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ГЕОГРАФИИ***

*UOT372.8:91*

***Aytac Vazeh qızı Tağıyeva***
*Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə dissertantı*
*https://orcid.org0000-0003-2572-1659*
*E-mail: aytac760@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(6).210-214*

# AZƏRBAYCAN COĞRAFİYASININ TƏDRİSİNDƏ MƏZMUN VƏ STRUKTUR YENİLİKLƏRİ

***Aytaj Vazeh Taghiyeva***
*doctorial student in the program of doctor of philosophy of*
*Baku State University*

# CONTENT AND STRUCTURAL INNOVATIONS IN THE TEACHING OF AZERBAIJAN GEOGRAPHY

***Айтадж Вазех гызы Тагиева***
*диссертант по программе доктора философии*
*Бакинского Государственного Университета*

# СОДЕРЖАТЕЛЬНЫЕ И СТРУКТУРНЫЕ НОВОВВЕДЕНИЯ В ПРЕПОДАВАНИИ ГЕОГРАФИИ АЗЕРБАЙДЖАНА

**Xülasə.** Məqalədə Azərbaycan coğrafiyasının ümumtəhsil məktəblərində tədrisi prosesində milli məzmunun formalaşması və kurikulum islahatları fonunda aparılan dəyişikliklər təhlil olunur. 1990-cı illərdən etibarən coğrafiya fənninin məzmununda milli istiqamətin güclənməsi, 2011 və 2022-ci illər kurikulumlarının tətbiqi nəticəsində tədris prosesinin fəaliyyət və nəticəyönlü xarakter alması elmi əsaslarla izah edilmişdir.

Tədqiqat göstərir ki, təkmilləşdirilmiş yeni kurikulumda coğrafiya fənninin məzmunu dörd əsas istiqamət üzrə yenidən qurulmuş, Azərbaycan coğrafiyasına dair 10 əsas və 37 alt standart müəyyən edilmişdir. Bu, milli komponentin fənn strukturunda xüsusi yer tutduğunu nümayiş etdirir və şagirdlərdə milli-məkan şüuru, analitik düşüncə və ekocoğrafi məsuliyyətin formalaşmasına şərait yaradır.
***Açar sözlər:*** *Azərbaycan coğrafiyası, məzmun xətləri, əsas və alt standartlar, kurikulum islahatları, coğrafiya tədrisi*

**Abstract.** The article analyzes the formation of national content in the process of teaching Azerbaijan's geography in general education schools, as well as the reforms carried out within the framework of curriculum modernization. Since the 1990s, the national orientation of the geography subject content has been strengthened, and as a result of the implementation of the 2011 and 2022 curricula, the teaching process has acquired an activity- and outcome-oriented character, which is explained on a scientific basis.

The research shows that in the improved curriculum, the content of the geography subject was reconstructed in four main directions, and 10 main and 37 sub-standards related to Azerbaijan's geography were identified. This demonstrates that the national component occupies a special place in the structure of the subject and creates conditions for the development of students' national-spatial awareness, analytical thinking, and eco-geographical responsibility.
***Keywords:*** *Azerbaijan geography, content lines, main and sub-standards, curriculum reforms, geography teaching*

**Аннотация.** В статье анализируется процесс формирования национального содержания при преподавании географии Азербайджана в общеобразовательных школах, а также изменения, проведённые в контексте реформ учебных программ. С 1990-х годов усилилось национальное направление в содержании учебного предмета «География», а в результате внедрения курикулумов 2011 и 2022 годов процесс преподавания приобрёл деятельностный и результативный характер, что обосновано на научной основе.

Исследование показывает, что в усовершенствованном новом курикулуме содержание предмета «География» было реконструировано по четырём основным направлениям, и были определены 10 основных и 37 подстандартов, относящихся к географии Азербайджана. Это демонстрирует, что национальный компонент занимает особое место в структуре предмета и способствует формированию у учащихся национально-пространственного сознания, аналитического мышления и эколого-географической ответственности.

***Ключевые слова:*** *география Азербайджана, содержательные линии, основные и подстандарты, реформы курикулумов, преподавание географии*

## Giriş

Azərbaycan Respublikasında təhsil sahəsində aparılan islahatlar, xüsusilə kurikulumun tətbiqi, fənlərin məzmununun yenilənməsi və təlim metodlarının modernləşməsi ilə nəticələnmişdir. Coğrafiya fənni bu dəyişikliklər içərisində xüsusi yer tutur, çünki bu fənn həm təbiət və cəmiyyət hadisələrinin qarşılıqlı əlaqəsini öyrədir, həm də şagirdlərdə vətənə mənsubluq və ekoloji məsuliyyət hissi formalaşdırır.

Azərbaycan coğrafiyasının tədrisi coğrafiya fənninin milli komponenti kimi həm elmi, həm də tərbiyəvi məqsədlərə xidmət edir. Müasir dövrdə ölkəmizin öyrədilməsi yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, tədqiqat, analiz və yaradıcılıq fəaliyyətinə əsaslanır. Azərbaycan coğrafiyasının öyrədilməsində məqsəd şagirdlərin ölkənin təbii şəraitini, resurslarını və iqtisadi-coğrafi potensialını anlamaqla yanaşı, bu bilikləri qlobal coğrafi proseslər kontekstində dəyərləndirə bilmələridir (1).

## Azərbaycan coğrafiyasının tədris məzmunundakı dəyişikliklər

Müstəqillikdən sonra coğrafiya fənninin məzmunu köklü şəkildə yenilənmişdir. Əgər sovet dövründə dərsliklərdə əsas diqqət İttifaqın ümumi coğrafiyasına yönəlirdisə, 1990-cı illərdən etibarən ölkədə təhsil sistemində aparılan dəyişikliklər coğrafiya fənninin məzmununa da təsir göstərmiş, milli istiqamət tədricən güclənmiş və "Azərbaycan coğrafiyası" tədrisin əsas mərkəzinə çevrilməyə başlamışdır. Bununla belə, 1992–2008-ci illərdə qüvvədə olan fənn proqramları məzmun və struktur baxımından hələ də sovet təhsil sisteminin bəzi xüsusiyyətlərini qoruyub saxlayırdı. Həmin dövrdə ümumtəhsil məktəblərində Azərbaycan Respublikasının coğrafiyasının öyrənilməsinə ayrılan ümumi vaxt 51 saata qədər artırılmış, tədris planına əsasən fənn iki istiqamət üzrə – fiziki coğrafiya (35 saat) və iqtisadi–sosial coğrafiya (17 saat) olmaqla 8-ci sinifdə ümumilikdə 51 saatlıq dərs yükü ilə tədris olunurdu. Lakin bu model bir sıra pedaqoji və metodik problemləri də özü ilə gətirirdi. Tədris saatlarının yalnız bir sinifdə cəmlənməsi nəticəsində biliklərin yüklənməsi və şagirdlərin məlumatları uzunmüddətli yaddaşda saxlaya bilməməsi kimi çətinliklər yaranırdı. Digər mühüm çatışmazlıq ondan ibarət idi ki, şagirdlər iqtisadi-sosial coğrafi anlayışları və terminləri əvvəlcədən öyrənmədən onları tətbiq etməli olurdular.

Ənənəvi orta məktəb coğrafiya proqramında iqtisadi və sosial coğrafiyaya dair mövzuların tədrisi əsasən 9-cu sinifdə nəzərdə tutulsa da, Azərbaycanın iqtisadi və sosial coğrafiyası 8-ci sinifdə tədris olunurdu. Nəticədə, mövzular arasında ardıcıllıq pozulur, əldə edilən biliklər növbəti illərdə təkrarlanmır və tətbiq edilmədiyi üçün dayaqsız, sistemsiz informasiyaya çevrilirdi.

Bu çatışmazlıqların aradan qaldırılması məqsədilə 2006-cı ildən Milli Kurikulum layihəsinin hazırlanmasına başlanılmış, 2013-cü ildən isə coğrafiya fənni üzrə yeni kurikulumun tətbiqinə start verilmişdir. Yeni proqram tədqiqat, fəaliyyət və nəticəyönlü öyrənmə prinsiplərinə əsaslanaraq, fənnin strukturunu mərhələli və sistemli şəkildə yenidən qurmuşdur. Azərbaycan coğrafiyası kursu müasir kurikulumda varislik prinsipinə əsaslanaraq mərhələli şəkildə bütün siniflər üzrə tədris olunurdu. Bu yanaşma fənnin məzmununun ardıcıllığını və biliklərin siniflər üzrə tədricən dərinləşməsini təmin edir-

di. Əvvəlcədən müəyyən edilmiş standartlara əsasən, Azərbaycan coğrafiyasının öyrənilməsinə hər bir sinifdə ayrıca yer ayrılmışdı. Kurikulum əsasında hazırlanmış dərsliklərdə Azərbaycan coğrafiyası ilə bağlı məlumatlar təkcə mövzu şəklində deyil, həm də motivasiya, xəritə, sxem və tapşırıq bölmələrində təqdim edilirdi. Bu cür strukturlaşdırma mövzuların yalnız informativ deyil, həm də fəaliyyətyönlü şəkildə mənimsənilməsinə imkan yaradır və fənnin milli məzmun komponentinin tədrisdə inteqrasiyasını təmin edirdi.

Yeni kurikulumun tətbiqi coğrafiya fənninin məzmun və struktur baxımından keyfiyyətcə yenilənməsinə səbəb olsa da, onun həyata keçirilməsi prosesində müəyyən metodik və nəzəri çatışmazlıqlar da üzə çıxmışdır. Coğrafiya fənni üzrə kurikulum 3 əsas məzmun xətti — “Coğrafi məkan”, “Təbiət” və “Cəmiyyət” — istiqamətləri üzrə qurulmuş, hər sinifdə orta hesabla 20 alt standart olmaqla ümumilikdə 120 alt standart müəyyən edilmişdi. Bununla belə, həmin standartlarda Azərbaycan coğrafiyası ayrıca istiqamət kimi sistemli şəkildə vurğulanmır, milli məzmun ümumi fənn kontekstində qismən təqdim olunurdu. Nəticədə, şagirdlərin ölkə coğrafiyasına dair biliklərinin dərinləşdirilməsi və onların tətbiqi səviyyəsi arzuolunan nəticəni tam təmin etmirdi(2).

Təcrübə göstərdi ki, fənnin yalnız ümumi məzmun çərçivəsində deyil, milli komponentin ayrıca istiqamət kimi formalaşdırılması da vacibdir. Bu ehtiyac həm fənnin nəticəyönümlü inkişafı, həm də milli coğrafi kimliyin şagird şüurunda formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyırdı. Tədris prosesində bu uyğunsuzluqlar fənnin məzmununun yenidən nəzərdən keçirilməsini və təkmilləşdirilməsini zəruri etmişdir.

Bu məqsədlə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli qərarı ilə *“Ümumtəhsil təhsil pilləsinin dövlət standartı və proqramlarının (kurikulumlarının) təsdiq edilməsi haqqında”* sənəd qəbul edilmişdir. Həmin qərar təhsil sistemində yenilənmə və modernləşmə istiqamətində növbəti mərhələyə keçidi təmin etmişdir(3).

Yeni kurikulumda coğrafiya fənninin məzmunu daha sistemli şəkildə qurulmuş, şagirdlərin bilik, bacarıq və kompetensiyalarının formalaşdırılması üçün şərait yaradılmışdır. Əvvəlki illərdə əsas diqqət biliklərin ötürülməsinə yönəlmişdisə, təkmilləşdirilmiş yeni kurikulumda öyrənmə prosesi fəaliyyətyönümlü və nəticəyönümlü yanaşma əsasında təşkil edilmişdir. Bu model şagirdin coğrafi məlumatı mənimsəməsi ilə yanaşı, onu analiz etmə, müqayisə etmə, tədqiqat aparma və qərarvermə kimi bacarıqlarını da inkişaf etdirməyə yönəlmişdir(6).

Əhəmiyyətli yeniliklərdən biri də məzmun xətlərinin sayının artırılması olmuşdur. Beləliklə, təkmilləşdirilmiş yeni kurikulum çərçivəsində fənnin məzmunu dörd əsas istiqamət üzrə sistemləşdirilmişdir:

1. Mövqe və məkan – şagirdlərin coğrafi koordinatlar, xəritə və məkan əlaqələri haqqında bilik və bacarıqlarının formalaşdırılmasını hədəfləyir;

2. Təbii sistemlər – təbii komponentlər, landşaft və ekosistemlər arasındakı qarşılıqlı əlaqələri öyrənməyə yönəlib;

3. Bəşəri sistemlər – insan fəaliyyətinin təbiətə və məkanın təşkili proseslərinə təsirini araşdırır;

4. Ətraf mühit və dayanıqlılıq – ekoloji dəyərlərin, resursların idarə olunması və dayanıqlı inkişaf anlayışlarının formalaşdırılmasını təmin edir(2).

Bu istiqamətlərin tətbiqi nəticəsində coğrafiya fənni daha kompleks və interdisiplinar xarakter almış, şagirdlərdə yalnız bilik deyil, həm də analitik, tədqiqat və sosial məsuliyyət bacarıqları formalaşdırılmağa başlanmışdır.

Təkmilləşdirilmiş yeni kurikulumun tətbiqi ilə coğrafiya fənninin məzmunu siniflər üzrə daha sistemli şəkildə yenidən bölüşdürülmüşdür. Fənn proqramı artıq şagirdlərin yaş xüsusiyyətləri və idrak səviyyələri nəzərə alınmaqla mərhələli şəkildə tərtib edilmişdir. Hər sinif üçün müəyyənləşdirilən əsas və alt standartlar biliklərin pilləli şəkildə formalaşmasına, nəticə etibarilə isə coğrafi düşünmə və tədqiqat bacarıqlarının inkişafına xidmət edir(4).

Yeni yanaşma nəticəsində mövzular ardıcıllıq və məzmun inteqrasiyası prinsipləri əsasında strukturlaşdırılmış, bu da fənlərarası əlaqələrin güclənməsinə şərait yaratmışdır. Coğrafiya dərslərinin məzmununa real həyat situasiyalarına əsaslanan tədqiqat və müşahidə tapşırıqları daxil edilmiş, bu isə öyrənmənin praktik xarakterini artırmışdır. Proqramda regional və qlobal coğrafi proseslərə münasibətdə sistemli

təfəkkürün formalaşdırılması məqsədi ön plana çəkilmişdir. Nəticə etibarilə, şagirdlər yalnız məlumat toplayan deyil, həm də məlumatı təhlil edən və əsaslandırılmış qərarlar verən tədqiqatçı şəxsiyyət kimi formalaşırlar.

Yeni kurikulumda standartların siniflər üzrə bölgüsü aşağıdakı kimidir:

| Siniflər | Məzmun xətləri | əsas standartlar | Alt standartlar |
|---|---|---|---|
| **6** | 3 | 7 | 23 |
| **7** | 3 | 8 | 20 |
| **8** | 4 | 7 | 26 |
| **9** | 4 | 8 | 25 |
| **10** | 4 | 11 | 27 |
| **11** | 3 | 12 | 34 |
| **Cəmi** | - | 52 | 155 |

Bu bölgü göstərir ki, 6–11-ci siniflər üzrə coğrafiya fənninin məzmunu 52 əsas və 155 alt standart əsasında qurulmuşdur. Standartların bu şəkildə paylanması fənnin mərhələli, pilləli və sistemli tədrisini təmin etməklə yanaşı, bilik və bacarıqların siniflər üzrə tədricən dərinləşməsinə şərait yaradır. Əvvəlki kurikulumlarda "Azərbaycan coğrafiyası" mövzusu əsasən ümumi məzmun kontekstində təqdim olunurdusa, yeni standartlarda bu istiqamət həm əsas, həm də alt standart səviyyəsində ayrıca göstərilmişdir. Bu yanaşma milli məzmunun fənnin strukturuna inteqrasiyasını təmin etmiş, şagirdlərdə ölkənin təbii şəraiti, resurs potensialı, əhali və təsərrüfat sistemi haqqında biliklərin ardıcıl və sistemli şəkildə formalaşmasına imkan yaratmışdır(2).

Aparılmış təhlillər göstərir ki, Azərbaycan coğrafiyasına aid olan əsas standartların sayı 10, alt standartların sayı isə 37-dir. Məzmun xətləri üzrə əsas və alt standartlarda Azərbaycan coğrafiyasının yerinin və paylanmasının sistemli təhlilini verə bilərik:

- VI sinifdə, "Mövqe və məkan" məzmun xətti üzrə Azərbaycan yalnız 1 alt standart səviyyəsində yer almış, ölkənin coğrafi mövqeyinin qavranılması məqsəd qoyulmuşdur. Eyni sinifdə "Təbii sistemlər" xətti üzrə 1 əsas 2 alt standart, "Bəşəri sistemlər" xətti üzrə isə 1 alt standart Azərbaycanla bağlıdır.
- VII sinifdə "Təbii sistemlər" məzmun xətti üzrə 2 əsas və 3 alt standart, "Bəşəri sistemlər" xətti üzrə 2 əsas standart ölkə coğrafiyasına həsr olunmuşdur ki, bu da bu da təbii komponentlərlə insan fəaliyyətinin qarşılıqlı əlaqəsini öyrətməyə xidmət edir.
- VIII sinifdə, Azərbaycan coğrafiyası "Bəşəri sistemlər" məzmun xəttində 1 əsas və 2 alt standart, "Ətraf mühit və dayanıqlılıq" məzmun xəttində isə 1 alt standart səviyyəsində nəzərdə tutulub.
- IX sinifdə, "Bəşəri sistemlər" məzmun xətti üzrə 1 əsas və 2 alt standart, "Təbii sistemlər" məzmun xətti üzrə 2 alt standart milli komponenti əhatə edir.
- X sinifdə, "Təbii sistemlər" məzmun xətti üzrə 1 əsas və 4 alt standart, "Bəşəri sistemlər" xətti üzrə 1 əsas və 2 alt standart, "Ətraf mühit və dayanıqlılıq" məzmun xəttində 1 əsas və 2 alt standart Azərbaycan mövzularını əhatə edir.
- XI sinifdə, "Təbii sistemlər" məzmun xətti üzrə 1 əsas və 2 alt standart, "Bəşəri sistemlər" xətti üzrə 1əsas və 6 alt standart yer almışdır.

Bu göstərici fənn məzmununda milli komponentin xüsusi yerə malik olduğunu nümayiş etdirir. Həmçinin, məzmun standartlarının şərhlərində Azərbaycan mövzularının izahı daha geniş təqdim olunur, burada ölkənin təbii şəraiti, resurs potensialı, əhali və təsərrüfat coğrafiyasına dair biliklərin mənimsənilməsi ilə bağlı metodik göstərişlər əksini tapır.

Bundan əlavə, hər bir standart üzrə tövsiyə edilən sinifdaxili fəaliyyət və praktik tapşırıqlar da müəyyən edilmişdir ki, bu da şagirdlərin yalnız bilik əldə etməsini deyil, həm də öyrəndiklərini tətbiq etmək, analiz və tədqiqat aparmaq bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Beləliklə, Azərbaycan coğrafiyası mövzularının həm əsas, həm də alt standartlarda əks olunması milli məzmunun fənnin strukturuna sistemli şəkildə inteqrasiyasını təmin edir. Bu yanaşma nəticəsində tədris prosesi bilikyönlülükdən fəaliyyət və nəticəyönlülüyə keçmiş, şagirdlərdə milli-məkan şüurunun və ekocoğrafi düşüncənin formalaşması üçün geniş imkanlar yaranmışdır.

Beləliklə, 2022-ci il kurikulumu coğrafiya fənninin məzmun strukturunda konseptual dönüş yaratmış, Azərbaycan coğrafiyasının öyrədilməsini milli-məkan şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən birinə çevirmişdir(6).

**Nəticə**

Aparılmış tədqiqatlar göstərir ki, coğrafiya fənninin məzmununda milli istiqamətin gücləndirilməsi və Azərbaycan coğrafiyasının ayrıca komponent kimi formalaşdırılması müasir təhsil sisteminin əsas tələblərindəndir. Müstəqillik dövründə bu istiqamətdə aparılan islahatlar, xüsusilə 2011 və 2022-ci illər kurikulumları, coğrafiya fənninin elmi-metodik əsaslarını təkmilləşdirmiş, onun milli və qlobal məzmun balansını təmin etmişdir.

Təkmilləşdirilmiş yeni kurikulumda coğrafiya tədrisində sistemlilik, mərhələlilik və fəaliyyətyönlülüyü təmin etməklə, Azərbaycan coğrafiyasının öyrədilməsini müasir pedaqoji yanaşmalar səviyyəsinə yüksəltmişdir. Yeni standartlarda milli məzmunun xüsusi vurğulanması fənnin tərbiyəvi, dünyagörüş və şəxsiyyətformalaşdırıcı funksiyalarını daha da gücləndirmişdir.

Beləliklə, müasir dövrdə coğrafiya fənninin məqsədi yalnız bilik ötürmək deyil, həm də şagirdlərdə analitik düşüncə, coğrafi tədqiqat bacarığı və milli-məkan kimliyi formalaşdırmaqdan ibarətdir. Bu baxımdan, Azərbaycan coğrafiyasının kurikulumda daha dərindən və sistemli şəkildə təqdim edilməsi ölkənin gələcək coğrafi savadlı nəslinin formalaşmasında mühüm elmi-pedaqoji əhəmiyyət kəsb edir.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində milli məzmunun gücləndirilməsi və Azərbaycan coğrafiyasının kurikulumda sistemli təqdimatı şagirdlərdə milli-məkan şüurunun formalaşdırılması baxımından aktuallıq kəsb edir.

**Problemin yeniliyi.** Tədqiqatda Azərbaycan coğrafiyasının fənn strukturunda ayrıca komponent kimi formalaşdırılması və məzmun xətləri üzrə yeni standartların təhlili elmi yenilik kimi təqdim olunur.

**Problemin praktik əhəmiyyəti.** Aparılmış nəticələr ümumtəhsil məktəblərində coğrafiya fənninin məzmununun təkmilləşdirilməsi, milli komponentin inteqrasiyası və kurikulumun səmərəli tətbiqi üçün praktik tövsiyələr verir.

**Ədəbiyyat**


1. Abbasov, Ə. Coğrafiyanın tədrisinin elmi-metodik əsasları. / Ə. Abbasov – Bakı: Təhsil, –2010. – 192 s.
2. Seyfullayeva, N. Ümumtəhsil məktəblərində coğrafiya fənninin məzmununa yeni yanaşma və təhsil proqramının (kurikulumun) tətbiqi. // – Bakı: Azərbaycan məktəbi, –2025, №3, –s. 45–52.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. – Bakı: Təhsil Nazirliyi, –2013. – 44 s.
4. Əliyeva, S. Kurikulum islahatlarının coğrafiya fənninin məzmununa təsiri. // – Bakı: Təhsil və Cəmiyyət, –2019, 11(3), –s. 72–79.
5. Hacıyev, T. Azərbaycan coğrafiyasının kurikulum əsasında tədrisində tədqiqat fəaliyyətlərinin təşkili. //– Bakı: Coğrafiya və Təhsil Jurnalı, –2022, 5(2), –s. 54–62.
6. Hüseynov, M. Coğrafiyanın tədrisində milli-məkan komponentinin formalaşdırılması problemləri. // – Bakı: Bakı Dövlət Universiteti Elmi Xəbərləri, –2018, 2(4), –s. 45–53.
7. Məmmədov, R. Azərbaycan coğrafiyasının tədrisində müasir pedaqoji yanaşmalar. / R. Məmmədov. – Bakı: Elm və Təhsil, –2021. – 210 s.
8. Qasımova, F. Fəaliyyət yönümlü təlim texnologiyalarının coğrafiya dərslərində tətbiqi. // Azərbaycan Müəllimi, −2017, 4(1), –s. 33–39.
9. OECD. The Future of Education and Skills: Education 2030 – Curriculum Design and Implementation. – Paris: OECD Publishing, –2019. – 44 p.
10. UNESCO. Education for Sustainable Development Goals: Learning Objectives. – Paris: UNESCO Publishing, –2015. – 62 p.
11. Azərbaycan Respublikası Nazirlər Kabineti. Ümumtəhsil təhsil pilləsinin dövlət standartı və proqramlarının (kurikulumlarının) təsdiq edilməsi haqqında qərar. – Bakı: Nazirlər Kabineti, 29 sentyabr 2020-ci il, №361. – [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46052
12. Ələkbərov, F. Y. VI sinif üçün “Coğrafiya” dərsliyi. I hissə. / F. Ələkbərov, N. Seyfullayeva, Y. Şabanova. – Bakı: Şərq-Qərb, –2024. – 208 s.
13. Ələkbərov, F. VII sinif üçün “Coğrafiya” dərsliyi. II hissə. / F. Ələkbərov, N. Seyfullayeva, Y. Şabanova. – Bakı: Şərq-Qərb, –2024. – 210 s.


**Redaksiyaya daxil olub:** 03.11.2025